HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*30 sentyabr 2015-ci il*

*№008 (08)*

*yeni_yol@mail.ru* | *İCTİMAİ QƏZET* | *“იენი იოლი” საზოგადოებრივი გაზეთი* | *qəzet 17 iyun 2015-ci ildən nəşr olunur*

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ BİRGƏ DƏNİZ TƏLİMLƏRİ KEÇİRİB



Gürcüstanın və Türkiyənin sahil mühafizə xidmətinin əməkdaşları birgə dəniz təlimləri keçiriblər. Bu barədə sentyabrın 26-da tərkibinə sahil mühafizəsinin də daxil olduğu Gürcüstan sərhəd polisindən məlumat verilib.

Qeyd olunub ki, birgə təlimlər Gürcüstanın ərazi sularında keçirilib. Təlimdə Türkiyənin bir sərhədçi kateri (“TCSG-95”) və Gürcüstanın iki sərhədçi kateri – “General Mazniaşvili” (P-102) və “Batumi” (P-103) iştirak edib.

“Dəniz təlimlərinin gedişində Gürcüstanın və Türkiyənin sahil mühafizə xidmətinin əməkdaşları insanların axtarışı və xilası üzrə birgə təlim və əməliyyatlar keçiriblər”, – sərhəd polisi məlumat verib. Verilən məlumata görə, bu təlim sahil mühafizəsi sahəsində və Qara dənizdə təhlükəsizliyin təmin edilməsində Gürcüstanın və Türkiyənin əməkdaşlığına yardım məqsədi güdür.

Son 15 ildə Türkiyə Gürcüstana hərbi qüvvələrin, sərhəd polisinin və sahil mühafizəsinin islahatında, bu sahələrin texniki yeniləşdirilməsində və kadr hazırlığında, onların NATO standartlarına uyğun səviyyəyə çatdırılmasında fəal yardım edir.

*SENTYABRIN GÖZƏ ÇARPAN QARŞIQ HADİSƏLƏRİNƏ ÖTƏRİ BİR BAXIŞ* — Afiq MUXTAROĞLU — 2

*CƏNAB NAZİR, BU QƏDƏR DƏ AĞ ETMƏK OLMAZ* — Cambul MƏMMƏDLİ — 3

*AVROPA ÖLKƏLƏRİNDƏ QAÇQINLARA FƏRQLİ MÜNASİBƏT* — Sahib MUSTAFA — 4

*DÜŞMƏN LİBASINDA BAŞ VERƏN SAVAŞ* — Afayət AFİQ — 5

*QURBAN BAYRAMININ DAXİLİ GÖZƏLLİKLƏRİ HAQQINDA BİR NEÇƏ SÖZ* — Hacı BƏKİROĞLU — 6

*KOSALI MƏKTƏBİNDƏ EL ŞAİRİ ZAHİD ƏLƏMPAŞALININ 80 İLLİK YUBİLEYİ KEÇİRİLİB* — “Yeni YOL” — 7

*GÜRCÜ JURNALLARI “ELZEVİR” BAZASINA DAXİL EDİLİB* — 8

## GÜRCÜSTAN PREZİDENTİ ÖLKƏ MÜSƏLMANLARINI QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB



Gürcüstan prezidenti Qeorqi Marqvelaşvili ölkə müsəlmanlarına müraciət edərək, onları Qurban bayramı münasibətilə təbrik edib, onlara xoşbəxtlik və mənəvi rahatlıq arzulayıb.

“Əziz həmvətənlər, sizi Qurban bayramı – böyük sülh, ümid, yardım, yaxınlara qayğı və xeyrin qələbəsi bayramı münasibətilə ürəkdən təbrik edirəm. Mən sizin bayramınıza qoşularaq, sizə və sizin ailələrinizə xoşbəxtlik, mənəvi dinclik və əmin-amanlıq arzulayıram”, – prezident Qeorqi Marqvelaşvili təbrikində deyib.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ MÜSƏLMANLARI QURBAN BAYRAMI MÜNASİBƏTİYLƏ TƏBRİK EDİB



“Biz bir olmağı və gürcü dövlətini gücləndirəcək vahid məqsəd ətrafında birləşməyi arzu edirik. Bu, tolerantlığın, qardaşlığın və sevginin, əsrlər öncə bizim böyük çarlarımız tərəfindən edilən seçimdir”. Gürcüstanın baş naziri İrakli Qaribaşvili bu sözlərlə Tbilisi cümə məscidində müsəlmanları qurban bayramı münasibəti ilə təbrik edib.

“Bizim müsəlmanlar, bizim vətəndaşlar qalan digər dinlərin nümayəndələri kimi bərabər hüquqludurlar. Bizim dövlət heç zaman cəmiyyətin dinlərə görə bölünməsinə yol verməyəcək”, – baş nazir qeyd edib.

Baş nazir müraciətində Yaxın Şərqdəki çətin vəziyyət haqqında da danışıb. “Haqq yolundan azan insanlar islamın və ya xristianlığın adı ilə çıxış edərək, minlərlə insanı yanlış yola çəkirlər. İnsanlarda sevgi çatışmazlığı var və bütün problemlər buradan qaynaqlanır. Bizim xoşbəxtliyimiz həqiqət yolundan heç zaman çıxmamağımızdadır. Bizim əsas gücümüz bizi birləşdirən sevgidir. Sizə sevgi və sülh arzu edirəm, bayramınızı təbrik edirəm”, – baş nazir məsciddə toplaşan müsəlmanlara müraciət edib.

Müsəlman icmasının liderləri İrakli Qaribaşviliyə təbriki və dəstəyi üçün təşəkkür edib, müsəlmanlar idarəsi adından ona xatirə hədiyyəsi veriblər.

## GÜRCÜSTAN QANUNUN ALİLİYİ İNDEKSİNDƏ 19 PİLLƏ İRƏLİLƏYİB

Dünya bankı uzunmüddətli tədqiqatlarının nəticələrini nəşr edib ki, burada 6 indikatora uyğun olaraq, 200-dən çox dövlətin idarəetməsi qiymətləndirilir.

Gürcüstan ədliyyə nazirliyinin məlumatına görə, bütün indikatorlar üzrə Gürcüstanın göstəricilərinin artdığı qeyd olunub və son 18 il ərzində bütün kateqoriyalarda ən yüksək göstərici 2014-cü ildə əldə olunub.

Ədliyyə nazirliyinin məlumatına əsasən, qanunun aliliyi İndeksində Gürcüstanın faiz göstəricisi 2014-cü ildə 64,4% olub. 2012-ci ildə bu göstərici 54,5% faiz təşkil edirdi. 2012-ci ildən sonra Gürcüstanın mövqeyi 19 pillə yaxşılaşıb .

Dünya bankının araşdırmaları onlarla nüfuzlu mənbənin və beynəlxalq təşkilatın hesabatlarına, həmçinin minlərlə ekspertin, dünya miqyasında tanınan özəl və qeyri-hökumət təşkilatlarının mülahizələrinə əsaslanır.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

# SENTYABRIN GÖZƏ ÇARPAN QARŞIQ HADİSƏLƏRİNƏ ÖTƏRİ BİR BAXIŞ

**Bu yarım ayı da belə oynayıb, yola verdik. Hərə cibinin ölçüsünə uyğun uşağının əynini-başını təzələyib məktəbə, universitetə yola saldı. Elə bir az nəfəsimizi dərmək istəyirdik ki, ötən ilin payızından bir yerdə qərar tuta bilməyən larimizin üzü yuxarı qalxan dingildəməsini müşahidə etmək məcburiyyətində qaldıq. Bunun axırının nə ilə qurtaracağını, larinin nə vaxt bir yerdə qərar tutacağını söyləmək çətindir. Nədən ki, bu işin peşəkarları belə ağlabatan fikir söyləməkdə çətinlik çəkdiklərini dönə-dönə vurğulayırlar. Onların bu mövzuda izhar etdikləri fikirlərin ikisi bir izə gəlmir, Əlinin dediyini Vəlinin dediyi inkar edir, Vəlinin dediyini də Əlininki. İndi bu larinin oynaması məsələsini bir az qırağa qoyaq, nə qədər dingildəsə də bir gün yorulub dinclik tapacaq.**

Ötən həftə İslam aləminin Qurban bayramını qeyd etməsi ilə də yaddaşlarda öz izini saldı. İnsanlarımız haqq yolunda qurbanlar kəsib, bayram sevinci yaşadılar. Hallı halına görə, bu qarşılıqlı yardımlaşma bayramında kiminsə qapısını açdı, kimisə qurban payı ilə sevindirə bildi. Kasıblara, yoxsullara əl tutub, yardım edən ayrı-ayrı şəxslərin, müxtəlif təşkilatların əməlləri diqqətlərdən yayınmadı. Bunlar Qurban bayramının gözəlliklərini sərgiləmək baxımından diqqətəlayiq hallardır. Bu bayram ərəfəsində müsəlmanlar müqəddəs həcc ziyarətinə üz tutdular. Və bizim diqqət yetirmək istədiyimiz məqamlardan biri də məhz həcc mərasimində baş verən olaylardır. Müqəddəs məkanın ziyarəti sırasında baş verən faciələrlə bağlı, ziddiyyətli xəbərlər bir ara gündəmi zəbt edib, qəzetlərin manşetinə çıxdı. Sosial şəbəkələrdə bu faciələrlə ilgili dürlü-dürlü fikirlər səsləndirildi. Kimi hadisələrin baş verməsinə görə, Səudiyyə iqtidarını qınadısa, kimi də baş verənlərdə okeanın o tayından, elə bu tayından da əl uzadıldığı iddiasını ortaya atdı. İstənilən halda faciə yaşandı, istənilən halda bu faciələrdən qaçmaq mümkün idimi kimi bir sualı fikrimizdən keçirə bilərik.

Ötən iki həftənin yadda qalan önəmli hadisələrindən biri də BMT Baş Assambleyasının 70-ci yubiley sessiyasının öz işinə başlaması və bu münasibətlə az qala dünyanın bütün baş bilənlərinin bir araya gələrək, dünyanın dərdini-sərini müzakirə edib, çözmək istəyinə düşmələridir. Dünyanın işlərini çıxmaza salanların, gözəlim dünyanı saldıqları bataqlıqdan necə çıxarmaq istəmələri maraq doğurur. Sözarası onu da dilə gətirək ki, okeanın o tayına ölkəmiz iki səfərtələ getdi. Prezidentimiz öz başının yığnağı ilə, baş nazirimiz də öz adamları ilə ABŞ-a üz tutdu. Bu məsələnin bir tərəfi. Hələ də prezident-baş nazir səviyyəsində qarşıdurmamız, qarşılıqlı ittihamlarımız səngimək bilmir.

Bu aralarda Rusiya Yaxın Şərqin qaynar qazanını bir az da körükləmək məqsədilə Bəşər Əsədin yanında olduğunu söylədi. Bölgədə siyasi-hərbi hərəkətlilik bir qədər də yüksəldi. Bəşər Əsəd rejiminə silah-sursat yardımında bulunan Rusiya bölgədə söz sahiblərindən biri olduğunu ortaya qoymaq üçün bir koordinasiya mərkəzinin yaradılmasına da imzasını atdı.

İran, İraq, Suriya və Rusiyadan ibarət bir dördlüyün və ya bir hərb kvartetinin yaranması onsuz da qan gölünə çevrilmiş Yaxın Şərq məsələsinin həllinin uzun müddət mümkünsüzlüyünü ortaya qoymurmu? Bu xəmirin hələ çox su aparacağından xəbər vermirmi? Sentyabrın sonlarında Barak Obama ilə bir araya gələn Putinin nələri müzakirə etdiklərini, hansı razılaşmalara nail olduqlarını isə yalnız təxmin etmək olar. Nədən ki, onların bu görüşündən sonra Rusiyanın birinci şəxsinin dilindən biz Suriyada hərbi əməliyyatlarda iştirak etməyəcəyik fikrinin səsləndirilməsi hansısa bir razılaşmadan xəbər verir. Cənab Putinin bu sözləri ağızından qaçırmasının arxasında nəyin gizləndiyini öncədən söyləmək imkanımız yoxdur. Nədən ki, az keçməmiş Rusiyanın valı tərsinə çevirməsinə şahidlik etməli olduq. Görünən odur ki, Rusiya bölgədə hərbi fəallığını daha da artırmaqdadır.

**Bütün bunları bir yana qoyaq. Xəbəriniz var ki, payız gəlir. Yarpaqların xəzələ dönməsi ilə, payızın ayaq səsləri artıq həyatimizə (həyatımıza da demək mümkündür) yaxınlaşır və payız qapımızı döyməyə hazırlaşır.**

## GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ DƏRNƏYİ 2100-DƏN ÇOX AİLƏYƏ YARDIM ETDİ



Barış və yardımlaşma dini olan olan İslamın gətirdiyi gözəlliklərdən biri də Qurban bayramıdır. Bu bayramda biz bir təşkilat olaraq istədik ki, az da olsa bəzi insanları sevindirə bilək, İslamın gözəlliyini onlara hiss etdirə bilək.

Bu səbəblə də hər il olduğu kimi, bu il də Qardabani rayonunda Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Dərnəyinin təşkilatçılığı və Türkiyə Cümhuriyyətində fəaliyyət göstərən Əziz Mahmud Hüdayi Vəqfinin maddi dəstəyi ilə qurbanlar kəsərək, 2100-dən çox ailəyə yardım etdik. Qardabani, Dmanisi, Bolnisi, Marneuli rayonlarının sakinləri qurban payı alanlar sırasında olublar. Kəsilən qurbanlardan Ahısqa bölgəsində yaşayan müsəlmanlara da pay düşdü. Bundan başqa Tiflisdə yerləşən tələbə yurdlarına, mədrəsələrə və Rustavi şəhərində yerləşən qocalar və kimsəsiz uşaq evinə də kəsilən qurbanlardan yardım edildi.

Təşkilatımız adından bütün müsəlmanların Qurban bayramını bir daha təbrik edir, kəsilən qurbanların Allah dərgahında qəbul olunmasını diləyirik.

## GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ DƏRNƏYİNDƏ TÜRKİYƏNİN ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNİN ƏMƏKDAŞI İLƏ GÖRÜŞ KEÇİRİLİB



Türkiyə Cümhuriyyətinin Gürcüstandakı səfirinin birinci müşaviri Aydın Açıkel ölkəmizdə diplomatik fəaliyyətini başa çatdıraraq, Türkiyəyə qayıdıb. Hörmətli diplomat vətənə dönməzdən öncə, sentyabrın 20-də Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə dərnəyinə baş çəkib.

Aydın bəyə Gürcüstandakı hərtərəfli fəaliyyəti və təşkilatımızla səmimi əməkdaşlığı səbəbi ilə Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Dərnəyi və "Yeni Yol" qəzeti adından təşəkkür edilib, ona gələcək fəaliyyətində uğurlar arzulanıb.

Sonda Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Dərnəyinin kollektivi Aydın bəyin şərəfinə ziyafət təşkil edərək, vida mərasimi keçirib.

# GƏLƏCƏYİN HƏKİMLƏRİ TÜRKİYƏDƏ TƏCRÜBƏ KEÇİBLƏR



Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Dərnəyinin təşkilatçılığı və Türkiyə Cümhuriyyətinin Gürcüstandakı səfirliyinin dəstəyi ilə Tbilisi Tibb Universitetinin 8 tələbəsi – Elşən Ocaqov, Elşad Osmanov, Loğman Xələfov, İsə Xəmmədov, Süleyman Gərəkov, Günel Muradova, Aytac Hüseynova, Rufanə Xələfova Türkiyənin Ədirnə şəhərindəki Trakya universitetində 45 günlük təcrübə keçməyə müvəffəq olub. Yay tətilində baş tutan bu təcrübə prosesi tələbələrimizin əldə etdikləri elmi bilikləri əməli olaraq sınaqdan keçirmələrinə imkan yaradıb.

Tələbələr Gürcüstana qayıtdıqdan sonra Türkiyənin Gürcüstantakı Fövqaladə və səlahiyyətli səfiri canab Zeki Levent Gümrükçü tərəfindən qəbul ediliblər. Hörmətli səfir Türkiyədə əldə etdikləri təcrübi biliyin Gürcustan universitetlərində ali təhsil alan tələbələr üçün bir stimul olacağını dilə gətirərək, onlara təhsillərində uğurlar arzulayıb, onlara bundan sonra da hər zaman müəyyən yardımlar ediləcəyini bəyan edib. Təcrübədən qayıdan tələbələr də öz növbələrində cənab Zeki Levent Gümrükçüyə səmimi qəbula və göstərilən yardıma görə təşəkkürlərini bildiriblər.

## XULDƏRƏ KƏNDİNDƏ "İNSANLIĞIN HAQQA YOLÇULUĞU" ADLI TƏDBİR KEÇİRİLİB

Bütün Gürcüstan Müsəlmanlar İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar şöbəsi Sentyabrın 29-da Xuldərə kəndində "İnsanlığın Haqqa Yolculuğu" adlı proqram təşkil edib. Tədbir Qurani Kərimdən ayətlərin oxunması ilə başlayıb.

Bundan sonra şöbənin sədri Lamiyə Hacıyeva "İnsanlığın Haqqa Yolculuğu" adlı mövzu ilə çıxış edərək, insanlığın qurtuluşunun İslamda olduğunu vurğulayıb. Daha sonra Lamiyə Məmmədova "İbadətin əhəmiyyəti", Gülnar Məmmədova "Allaha təslimiyyət", Ruhanə Əfəndiyeva "Məscid və məbədlərimiz və onların əhəmiyyəti" mövzusunda fikirlərini toplaşanlara çatdırıblar.

Həmçinin proqramda Xuldərə kəndinin islam kursunda təhsil alan tələbələr şeirlər, ilahilər səsləndiriblər. Yerli camaat həyata keçirilən proqramdan razı qaldıqlarını və belə layihələrin davamlı olmasını dilə gətiriblər.

### BAŞSAĞLIĞI

Qardabani rayonunun Kosalı ictimai məktəbinin müəllim kollektivi Bolnisi rayonun Kəpənəkçi 1 saylı ictimai məktəbinin müəllimi, saz-söz sənətimizin mükəmməl bilicisi

Aşıq Arif Yusif oğlu Ruqayevin

Vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

# CƏNAB NAZİR, BU QƏDƏR DƏ AĞ ETMƏK OLMAZ

Gürcüstan parlamentində iqtidar partiyasının nümayəndəsi Zaxariya Kutsnaşvili yüksəkçinli dövlət məmurları üçün nəzərdə tutulan mükafatların verilməsinin dayandırılması təklifi ilə çıxış edib. Bu layihənin baş tutacağı təqdirdə dövlət büdcəsində 4-5 milyon lariyə qənaət olunacaq. Deputatın bu təşəbbüsü öz komandasının üzvləri tərəfindən olduqca sərt təpki ilə qarşılanıb, həmişə olduğu kimi, yenə də Maliyyə naziri Nodar Xaduri cənabları xüsusilə fərqlənrərək, "tarixi" sözlər söyləyib: "Mən elə düşünürəm ki, açıq qapını sındırırıq, mükafatlar sistemi nazirlər səviyyəsində öz həllini tapıb, dövlət qulluğunda çox ləyaqətli insanlar çalışırlar və onlara layiqli əmək haqqı lazımdır"... Bəli, cənab nazirin bu təklifə verdiyi reaksiya çox düşündürücüdür.

Diqqətli Oxucunun bu cənabın bir neçə "qəhrəmanlıqları" və "ibrətamiz" çıxışları da guman ki, xatirindədir. Onlardan sadəcə ikisini qısaca olaraq nəzərinizə çatdırım. Bu yaxınlarda ölkəmizdə milli valyutanın kəskin şəkildə devalvasiyaya uğradığı zaman da o, məsələyə öz "dahiyənə" münasibətini bildirərək, ölkə əhalisinə ürək-dirək vermiş və hər kəsin təbəssümünə səbəb olan məhşur "şokuniya" terminini "kəşf" etməklə, müasir gürcü dilinə yeni bir "söz" qazandırmışdır. İki il bundan öncə Adigün rayonunun Çela kəndində gülünc və absurd bəhanə ilə məsciddən qoparılan minarə də yəqin xatirinizdədir. O vaxtlar həmin "şərəfli" əməliyyatı da bu cənab təşkil etmişdi.

İndi bu "çox bilmiş, ağıllı", və ürəyi ölkə əhalisi üçün "döyünən" nazirimizə içimdən gələn bir-iki sual vermək istərdim: 1) Fikrinizcə, başqa yerlərdə, misal üçün, qeyri-dövlət təşkilatlarında, fabrik-zavodlarda, bazarlarda, kəndlərdə və s. yerlərdə çalışanlar ləyaqətsiz, ya az "ləyaqətlidirlər"?! 2) Sizin "ləyaqəti" ölçən meyarlarınız hansı faktorlardan ibarətdir? 3) Necə olur ki, bütün il boyu kəndli, sözün həqiqi mənasında, məhsulunun başına fırlana-fırlana, min bir əziyyətlə onu ərsəyə gətirir və realizasiya edəndə isə baxır ki, əlində elə bu məhsula xərclədiyi preparat-dərmanların pulundan başqa heç nə qalmayıb? (Şəxsən bəndəniz 8-10 dəfə tənəyə dərman püskürdüb, (başqa əziyyətlərini demirəm) 1 tona qədər üzüm yetişdiribdir, 1 kiloqramının qiyməti isə 60-80 tetri arasındadır... Hələ dərmanların ikiqatına çıxdığını, kənd təsərrüfatına ayrılan vauçerlərin yarıdan da az miqdara endirilməsini demirəm); 4) 2012-ci il seçki öncəsi verdiyiniz vədlərdən hansı vəd(lər)i yerinə yetirmisiniz? 5) Bütün məhsulların qiymət artımına artıq alışmışıq, qazın qiymətinin nə zaman qalxacağının "həsrətindəyik". Qazın da qiyməti qalxacaqmı?

Və nəhayət, "şokuniyaya" düşmüş əhalidə artıq elə təssürat yaranmışdır ki, məqsədiniz ölkəni iqtisadi cəhətdən gücləndirmək deyil, öz şəxsi həyatınızı komfortlaşdırmaq üçün xarici təşkilatlardan kreditlər almağınız və bununla da gələcək nəsillərin borclarını bir az da artırmağınızdır. Əgər belə olmasaydı ölkəmizin əhalisi kütləvi şəkildə ölkəni tərk edib Türkiyə, Rusiya, Azərbaycan kimi xarici ölkələrə üz tutmaz, orada qul əməyi ilə məşğul olub, dilənçi payı əmək haqqı almazdılar.

Cambul MƏMMƏDLİ

## XADURİ: DÖVLƏT QULLUQÇULARINA ÖDƏNƏN MÜKAFAT SİSTEMİ MÜZAKİRƏ EDİLMƏYƏCƏK

Dövlət qulluğu sahəsində çox layiqli insanlar işləyirlər və onların əməkhaqqı da layiqli olmalıdır. Gürcüstan maliyyə naziri Nodar Xaduri parlament əksəriyyətinin nümayəndəsi Zaxariya Kutsnaşvilinin mükafat sistemi ilə bağlı təklifinə bu cür münasibət bildirib.

"Düşünürəm ki, biz açıq qapını sındırırıq, mükafat sistemi nazirlər səviyyəsində tənzimlənir. Əmək haqqına gəlincə, mən dəfələrlə demişəm və bir daha deməliyəm ki, dövlət qulluğunda çox layiqli adamlar işləyirlər və onların əməyi layiqli də olmalıdır", – Xaduri bəyan edib. İndiki mövcud sistemin müzakirə edilib, edilməyəcəyi sualına cavab verərən, nazir qeyd edib ki, söhbət müzakirədən getmir, söhbət onun tənzim olunmasından gedir.

Zaxariya Kutsnaşvilinin təklifi yüksək dövlət vəzifəli şəxslərin mükafat almasında məhdudlaşmanı nəzərdə tutur.

Söhbət "Dövlət qulluğu haqqında" qanunda nəzərdə tutulan dəyişikliklərdən gedir. Bu dəyişikliklərə görə, 2016-cı ilin 1 yanvarınadək bir çox vəzifəli şəxslərin mükafat almaq hüququ dayandırılacaq.

## GÜRCÜSTANDA VAHİD MİLLİ İMTAHANLAR QİSMƏN ELEKTRON FORMATDA KEÇİRİLƏ BİLƏR

Milli imtahan və qiymətləndirmə mərkəzinin rəhbəri Maya Miminoşvili bildirib ki, 2016-cı ildə vahid milli imtahanlar qismən elektron formatda keçirilə bilər. Onun sözlərinə görə, bu, test bukletlərinin xaricdə çap olunmasına ehtiyacı aradan qaldıracaq.

Xaricdə sifariş olunan test bukletləri Gürcüstan hökumətinə baha başa gəlir. Imtahan mərkəzləri məxfiliyi qorumaq məqsədilə onları bilavasitə imtahan günü alırlar.

Miminoşvili qeyd edib ki, dünyadakı yeni texnologiyalarla ayaqlaşmaq vacibdir, lakin bunun üçün abituryentlərin işini maksimum yüngülləşdirmək lazımdır.

Əgər yeni format gələcək imtahanlarda tətbiq ediləcəksə, il ərzində abituryentlərə yeniliklərlə tanış olmağa imkan veriləcək.

Yeni sistemə görə, sualları elektron formada alan abituryentlər əvvələr olduğu kimi cavabı yazılı şəkildə verəcəklər.

## ŞAGİRDLƏRİN VALİDEYNLƏRİNDƏN PUL TOPLAMAQ QADAĞAN EDİLİB

Nazir Tamar Sanikidzenin sözlərinə görə, məktəblilərin valideynləri məktəblərin ehtiyacı üçün pul xərcləməməlidirlər, çünki bu, Gürcüstan təhsil və elm nazirliyinin vəzifəsidir.

O, şagirdlərin valideynlərindən pul yığılması ilə bağlı təəccübünü bildirib.

"Belə hallar məktəbdə baş verməməlidir. Təlimlə, təhsil prosesi ilə bağlı olan istənilən xərclər bizim səllahiyyətimizdədir, dövlətin səllahiyyətindədir", – Sanikidze deyib.

O, qeyd edib ki, əgər məktəbin əlavə maliyyələşməyə ehtiyacı varsa, təhsil nazirliyinin xüsusi komissiyasına müraciət etmək lazımdır. "Mən çox xahiş edirəm, hamını, bizim məktəb ictimaiyyətini məktəblərdə belə presedentə yol verməməyə çağırıram. Əgər hər hansı ehtiyac varsa, onlar nazirliyə müraciət etməlidirlər. Valideyn nəyəsə əlavə xərc çəkməyə borclu deyil", – Sanikidze vurğulayıb.

Nazir məktəblərdə belə hallar baş verərsə, bu barədə nazirliyə məlumat verməyi xahiş edib. Bununla bağlı artıq müvafiq monitorinq də fəaliyyətə başlayıb.

Qayda pozuntusu aşkarlandığı təqdirdə məktəb əməkdaşlarına xəbərdarlıq ediləcək və ya işdən azad olunacaqlar.

# ŞƏHİD ELŞƏN MƏMMƏDOV ÖLKƏMİZDƏ DƏFN OLUNDU



Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu, sentyabrın 25-də qoşunların təmas xəttində düşmənin Azərbaycan mövqelərinə basqın etməyə cəhd göstərməsi nəticəsində şəhid olan 23 yaşlı Elşən Vaqif oğlu Məmmədovun dəfn mərasimi keçirilib.

Əslən Bolnisinin Zol-Güvəc kəndindən olan şəhid Elşən Məmmədovun dəfn mərasimində Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin nümayəndələri, Bütün Gürcüstan Müsəlmanları İdarəsinin müftisi Hacı Yasin Əliyev, şeyx Hacı Ramin İgidov, ziyalılar, jurnalistlər, ruhanilər və kənd sakinləri iştirak ediblər. Dəfn mərasimində Bolnisinin Baş axundu Hacı İfrət Əhmədov və digər din xadimləri, şəhid Elşən Məmmədovun ruhuna Quran ayələri və dualar oxuyublar.

BGMİ-nin din rəhbərləri çıxış edərək şəhidimizə Allahdan rəhmət, ailəsinə və yaxınlarına səbr və başsağlığı diləyiblər. Hacı Ramin yas mərasimində olanlara şəhidin məqamı və şəhadətin dəyərindən söhbət edib. Şəhid cənazə namazından sonra Zol-Güvəc kəndinin qəbristanlığında torpağa tapşırılıb.

## ქალაქ გარდაბანში ოთხი მინი სტადიონი კეთდება

ლელაშხას დასახლებასა და ჭავჭავაძის ქუჩაზე ახალი მინი-სტადიონების მშენებლობა მიმდინარეობს. რაც შეეხება ტელმანისა და ლესელიძის ქუჩებს, აქ უკვე არსებული მინი-სტადიონების რეაბილიტაცია ხორციელდება. ოთხივე სტადიონზე ხელოვნური საფარი დაიგება და განათება დამონტაჟდება. სარეაბილიტაციო-სამშენებლო სამუშაოების შესრულება ამ დროისთვის, ოთხივე ობიექტზე 50% შეადგენს. პროექტი, რეგიონალური ფონდის მხარდაჭერით ხორციელდება. სულ, ოთხივე მინი-სტადიონის კეთილმოწყობისთვის, 167 300 ლარი დაიხარჯება. სამუშაოებს, ტენდერში გამარჯვებული კომპანია"ინტერპლუსი" ასრულებს. სატენდერო დოკუმენტაციის თანახმად, კომპანიამ დასრულებული ობიექტები, გარდაბნის მუნიციპალიტეტის გამგეობას, ექვს ოქტომბერს უნდა ჩააბაროს.

# QARDABANİ ŞƏHƏRİNDƏ 4 MİNİ STADİON TİKİLİR



Qardabanidə dörd yeni mini stadion tikilir. Lelaşxa qəsəbəsi və Cavcavadze küçəsində yeni mini stadionların tikintisi davam edir.

Telman küçəsində və Leselidze küçəsində isə artıq mövcud olan mini idman stadionlarında təmir-bərpa işləri aparılır. Stadionların hər birinə süni ot örtüyü çəkiləcək və işıqlandırma sistemi yerləşdiriləcək. Obyektlərdə işlərin 50%-i artıq başa çatdırılıb.

Layihə regional fondun dəstəyi ilə həyata keçirilir. Stadionların bərpası üçün 167 300 lari xərclənəcək. İşləri tenderdə qalib gəlmiş "İnterplyus" şirkəti aparır. Tender sənədləşməsinə əsasən, şirkət obyektləri oktyabrın 6-da Qardabani bələdiyyəsinə təhvil verməlidir.



Sahib
MUSTAFA
sahib1975.sm@gmail.com

## AVROPA ÖLKƏLƏRİNDƏ QAÇQINLARA FƏRQLİ MÜNASİBƏT

**Qaçqınlar mövzusunun aktuallığını nəzərə alıb, onu bu sayımızda da davam etdirməyi, mövzuya başqa yöndən münasibətimizi bildirməyi məqsədəuyğun saydıq.**

Dalğa-dalğa Avropaya axın edən qaçqınlar köhnə qitə ölkələrinin əsl baş bəlasına çevrilmişdir. Ölümün və zülmün pəncəsindən can qurtarmağa çalışan insanların başlarına gələn bəlaların əsl səbəbləri əslində hansı siyasi çevrələrdə cərəyan etməsi və kimlərin papaqlarının altında gizləndiyi yəqin ki, çoxlarımıza bəllidir. Hegomon dövlətlərin siyasi və iqtisadi maraq dairələrinə düşmüş ölkələrə "qərb demokratiyası" transfer etmək bəhanəsi ilə fırladılan oyunların bədəlini hər zaman olduğu kimi, yenə də bu oyunlardan bixəbər olan günahsız insanlar ödəyir.

Son zamanlar dünya mətbuatı qaçqınların Avropaya axın etməsi haqqında geninə-boluna xəbərlər verməkdədir. Məqsəd həmin xəbərləri təkrarlamaq yox, məhz Avropada qaçqınlara qarşı olan münasibətə, problemin ayrı-ayrı Aİ ölkələrinin ictimai-siyasi konyukturasına nə qədər təsir etməsinə nəzər yetirməkdən ibarətdir. Qaçqınların Qərbə üz tutmalarının əsas səbəbi burada maddi rifahın və təhlükəsizliklərinə zəmanətin yüksək səviyyədə olmasıdır. Lakin Almaniya, Fransa, İspaniya kimi dövlətlər bəlli sayda qaçqınları öz ölkələrində yerləşdirəcəkləri haqqında açıqlamalar vermişdir. Miqrantların əksəriyyətinin Almaniyaya getmək istəməsi bu ölkəni çıxılmaz vəziyyətə salıb. Ona görə də Angela Merkel Avropa İttifaqına daxil olan ölkələrin ərazisi, əhalisinin sayı və iqtisadi qüdrətini nəzərə almaqla kvota halında qaçqınların yerləşdirilməsi planını irəli sürüb.

Miqrantların tranzit ölkə kimi istifadə etdiyi, onsuz da iqtisadi böhran içərisində boğulan Yunanistan və son dövrlər iqtisadiyyatında düşüş yaşayan İtaliyaya bu yöndə diqqətin artırılması Almaniya federal kanslerinin təşəbbüsüdür. Digər tərəfdən də bundan sonra Avropaya gələcək qaçqın axınının qarşısını almaq və onları günbatan qitənin sərhədlərindən kənarda yerləşdirmək ideyası da bu planın tərkib hissəsidir. Merkel qeyd edir ki, halhazırda başda Türkiyə olmaqla ən çox qaçqın qəbul etmiş ölkələrə, o cümlədən Livan və İordaniyaya maliyyə yardımları artırılmalıdır. Lakin, sözügedən ölkələrə maliyyə yardımlarının həcmni artırmaqla Avropaya köç edən miqrantların qarşısını almaq heç də ağlabatan görünmür. Qeyd edək ki, Türkiyə indiyədək Suriya qaçqınlarına 8 milyard dollar xərc çəkmişdir.

Artıq Macarıstan dövlət sərhədlərini qaçqınların üzünə bağlayıb. Hətta bu ölkənin ifrat sağ yönümlü baş naziri Viktor Orban bir az da qabağa gedərək müsəlman dünyasından Avropaya axışan qaçqınları "işğalçı" adlandıraraq, onlara sığınacaq verilməsini qadağan edib. Üstəlik, macar parlamenti miqrant böhranını çözmək üçün hökumətə ordudan istifadə etmək səlahiyyəti verən qanun lahiyəsini də təsdiqləyib. Avropada qaçqınlara olan münasibət bu qitənin bütün ölkələrində eyni deyil. Miqrantlara qarşı neqativ mövqe tutan Şərqi Avropa ölkələrində ifrat sağ qüvvələrin fəallaşması artıq özünü meydanlarda göstərməkdədir. Sentyabrın 12-də Polşa, Çexiya, Slovakiya və Macarıstanda qaçqınlar əlehinə nümayişlər keçirilmişdir. Artıq bu ölkələrdə neofaşist cərəyanlarının güclənəcəyini proqnozlaşdırmaq mümkündür. Hətta, Çexiyada nümayişin "İslamı və qaçqınları Çexiyada görmək istəmirəm" şüarı altında keçməsi neofaşistlərin və ifrat millətçilərin qaçqın faktorundan yararlanaraq, qarşıdakı seçkilərdə siyasi dividend əldə etmək istəməsi kimi qiymətləndirilməlidir. Macarıstanda aparılmış sorğular göstərir ki, V. Orbanın qaçqınlar siyasəti onun "Fides" partiyasının mövqeyini 4% gücləndirmişdir.

**Ümumiyyətlə, faşizm fəlsəfəsinə söykənən ultrasağ meyilli siyasi partiyaların millətlərarası sülh və əmin-əmanlıq şəraitində seçicilərin rəğbətini qaznmaq şansları sıfra bərabər olduğundan, hazırda baş verən hadisələrin onların xeyrinə işləməsi kimi qiymətləndirmək olar. Leksikonlarında multikulturalizm, dinlərarası dialoq, tolerantlıq, humanizm kimi terminlərin olmadığı , ümumbəşəri və insani dəyərlərə yer verməyən fərdlərdən başqa nə gözləmək olar ki?**

## İPİN UCU OKEANIN O TAYINA GEDİB ÇIXIR

Qərb kütləvi informasiya vasitələri qaçqınların Avropaya keçməsini kimlərin maliyyələşdirdiyini aydınlaşdırıb.

Qaçqınlar Avropaya təhlükəli səfər üçün müxtəlif məlumatlara görə, adambaşına 10 min avro xərcləyirlər.

Onlarda bu qədər pul haradandır, onları kim maliyyələşdirir?

Almaniya, Avstriya və Fransanın müstəqil mətbuat orqanlarında qaçqınların Avropaya kütləvi axınının arxasında kimlərin durması barədə məqalələr, reportajlar görünməyə başlayıb.

Avstriyanın İnfo-Direct nəşri xüsusi xidmətdən sızan məlumata əsaslanaraq birbaşa təsdiq edir ki, amerikalılar Afrikadan və Yaxın Şərqdən yüz minlərlə sakini Aralıq dənizi vasitəsi ilə Avropaya aparan bələdçiləri maliyyələşdirirlər.

Jurnalistlər daha dərinə gedərək, aydınlaşdırıblar ki, qaçqınların Avropada, əsasən də İsveçrə, Avstriya və Almaniyada yerləşdirilməsi ilə



yalnız dövlət qurumları deyil, həm də büdcədən astronomik məbləğdə pul alan şirkətlər məşğuldurlar.

Avstriya müxbirlərinin araşdırmasına görə, bu çoxsaylı şirkətlər bu və ya digər dərəcədə Rotşildlər ailəsinə bağlıdır və ya onlara məxsusdurlar.

## NYU-YORKDA GÜRCÜ MƏHSULLARININ SATIŞ-SƏRGISI KEÇİRİLİB

Nyu-Yorkda Chelsey Marketdə Discover Georgia satış yarmarkası keçirilib. Sentyabrın 27-də Gürcüstanın baş naziri İrakli Qaribaşvili tədbirə qatılıb.

Baş nazirin administrasiyasının məlumatına görə, Chelsey Marketdə üç gün davam edən sərgidə suvenirlər, əl işi nümunələri, xalq sənəti nümunələri, çağdaş tərtibatçıların məhsulları nümayiş etdirilib.

Sərgiyə gələnlər Gürcüstan tarixi ilə tanış olub, gürcü yeməklərinin və şərabının dadına baxıblar.

Satış-yarmarka gürcü məhsullarının tanıdılması, ixrac potensialının yüksəldilməsi, kiçik və orta biznesin həvəsləndirilməsi məqsədilə həyata keçirilib.

Stendlərdə təqdim olunan məhsullar gələnlərin Gürcüstanın mədəni və tarixi cizgiləri ilə yaxından tanış olmasına imkan verib.

Chelsey Marketə Beynəlxalq təhsil mərkəzi tərəfindən maliyyələşdirilən və ABŞ-da təhsil alan tələbələr də gəliblər.

## TBİLİSİDƏ AVROPA DİLLƏRİ GÜNÜ QEYD OLUNUB

Milli gənclər sarayında Avropa dilləri günü qeyd edilib. Aİ-nın birləşmiş mədəniyyət müəssisəsinin təşkil etdiyi tədbirdə 7-14 yaşlı məktəblilər iştirak ediblər.

Tədbir çərçivəsində təşkilatçılar uşaqlara bir neçə dildə teatr tamaşaları təqdim ediblər. Uşaqlar da rəqs, çoxdilli mahnı, oyun və digər müxtəlif müsabiqələrin iştirakçısı olublar. Qaliblərə xatirə hədiyyələri verilib.

Mərasimdə iştirak edən Gürcüstan xarici işlər nazirinin müavini Xatuna Totladze şagirdlərə nitqlə müraciət edib.

Avropa dilləri günü 2001-ci ildə təsis olunub və bir çox dünya ölkələrində qeyd edilir. Artıq üçüncü ildir ki, XİN-nin təşəbbüsü və xarici ölkələrdəki diplomatik nümayəndəliklərin gücü ilə gürcü dili Avropa dilləri günü tədbirlərində müxtəlif ölkələrdə təmsil olunur.

## SOFİYA ŞAMANİDİ MİLLİ AZLIQLAR BARƏDƏ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA MƏLUMAT VERİB

Gürcüstan prezidentinin etnik azlıqların işi üzrə müşaviri Sofiya Şamanidi azlıqların məsələləri ilə məşğul olan 40-dək qeyri-hökumət təşkilatının nümayəndələri ilə görüş keçirib.

Prezidentin müşaviri toplaşanlara bir il ərzində görülən işlərin hesabatını təqdim edərək, onları prezident administrasiyasının işlərinin nəticələri ilə tanış edib.

"Son bir il ərzində misilsiz layihələr həyata keçirilib. İnteqrasiya baxımından milli azlıqların dövlət dilini öyrənməsi məsələsi çox vacibdir. Artıq "Gürcü dilini öyrənirik" layihəsinin ikinci mərhələsi həyata keçirilir. Layihə çərçivəsində 13 rayonun 56 kəndinin 2500 sakini dövlət dilini öyrənə bilib. Prezidentin köməyi ilə Abxaziyanın virtual arxivi də yaradılıb. Məlumdur ki, müharibə vaxtı Suxumidə arxiv məhv edilib. İ. Cavaxişvili adına TDU-nun bazasında osetin icmasını narahat edən problemlərin həllini öz üzərinə götürən gürcü-osetin münasibətləri Mərkəzi açılıb. Samsxe-Cavaxetidə universitetin gücləndirilməsi də vacibdir ki, bu bölgədən tələbələr başqa ölkələrə getməsinlər", – Şamanidi bəyan edib.

Görüşdə parlament üzvləri, barış və vətəndaş bərabərliyi üzrə dövlət nazirliyi aparatının və ombudsmen ofisinin nümayəndələri iştirak ediblər.

## GÜRCÜSTAN DİN YOL HƏRƏKƏTİNİN TƏHLÜKƏSİZLİYİNİ TƏMİN ETMƏK ÜÇÜN PROQRAM HƏYATA KEÇİRİR

Gürcüstan DİN yol hərəkətinin təhlükəsizliyini təmin etmək üçün genişmiqyaslı proqram həyata keçirməyə başlayır. Bu barədə daxili işlər naziri Qeorqi Mqebrişvili bəyan edib.

Onun sözlərinə görə, proqram oktyabrda həyata keçiriləcək və onun əsas məqsədi yalnız nəzarəti gücləndirmək deyil, həm də yol hərəkətinin təhlükəsizliyi məsələlərinə təsirli reaksiya vermək və qayda pozuntularını qabaqlayan tədbirləri maksimum gücləndirməkdir.

"Bu, kifayət qədər maraqlı və böyük layihədir. Bu layihədə yalnız DİN-nin deyil, həm də digər dövlət orqanlarının və cəmiyyətin hər bir üzvünün iştirakı vacibdir. Bu layihə, eləcə də digərləri cəmiyyətimizin təhlükəsizliyini təmin




etmək üçün həyata keçirilir. Mən bunu "sizin təhlükəsizlik qanununuz" adlandırardım", – nazir bəyan edib.

# EL-OBASINA LAYİQ İNSANLAR

***(Oxucu məktubu)***

Əziz eloğlular!

Haqqında yazmaq istədiyim bu insanları elimiz çox gözəl tanıyır. Onların haqqında nə yazmaqla, nə danışmaqla qurtarmaz. Bu insanlar sakrebulomuzun sədri Nəbi Abdullayev və kənd upravamız Eldar Məmmədovdur. Uca tanrıya şükrlər olsun ki, ilk dəfə seçkidə laiyqli insanlar layiq olduqları qoltuğa otura bildilər. Mən buna görə dövlətimizə və rayonumuzun rəhbərliyinə təşəkkürümü bildirirəm. Onlar işlədiyi az bir zaman içərisində çox işlər görə biliblər. Həm də bu el, bu xalq üçün çox gözəl arzuları var. Tanrı hər ikisinə də yar olsun. Ürəkləri xalq üçün döyünənlər belə də olmalıdırlar.

Nəbi müəllim, siz bilin ki, adınız artıq unudulmaz bir formada Sadaxlı tarixinə düşüb. İnsan oğlu elə yaşamalıdır ki, ondan yadigar nəsə qalsın. Qocalar demişkən, gərək bu da insanın qanında ola. Şükür Allaha ki, bu da Sizdə var. Həyatda nə yaxşılıq, nə də pislik unudulmur. Vəzifə sahibi də gərək imkanı olanda xalqına nəsə etsin ki, unudulmasın. Siz də bu yolda var gücünüzlə çalışırsınız.

Sadaxlıda yaxşı insanlar çox olub. Eminoğlu Əhəmd, Layışov Avdı, Göyüş Xansultanlı, Sayad Xəlilov, Mehman Məmmədov və başqalarını missal göstərmək olar. Rəhmətlik Avdı babanın və Göyüş kişinin düzəltdiyi körpülər, eləcə də Xudullu Məsim müəllimin düzəltdiyi asma piyada körpüsünün indi qiyməti yoxdur. Sayad müəllimlə mühəndis Mehmanın rəhbərliyi altında kəndimizə su çəkilməsinə onlar səbəbkar olmuş, cəmi Sadaxlı eli də maddi dəstəyini bu yolda əsirgəməmişdi. Öz xalqı üçün yaşayanlar heç vaxt unudulmur. İndi vəzifə başında olan iki eloğlumuz da əl-ələ verərək, kəndimizdə Marneuli Ədilliyə evinin filialı və reyster xidməti üçün binaların tikintisinə başlayıblar. Pasport masa xidmətinin Sadaxlıda fəaliyyətə başalayacagı günü səbrsizliklə gözləyirik. Artıq tikinti işləri bitmək üzrədir. Həm də bununla bərabər yeni 150 nəfərlik uşaq bağçasının tikilməsi işində Sədi oğlu Nəbi müəllimin xidməti böyükdür. Siz müasir Sadaxlının memarı adını qazanmısınız. İnşallah yeni ilə kimi o da təhvil verilər. Kəndin yenidən fasiləsiz su ilə təminatı işi də layihə olaraq təsdiqini tapıb və bir milyon laridən artıq vəsait ayrılması haqqında eşitmişik. Sizlərin haqqında çox yazmaq olar. Xalq hər şeyi görür və bilir. Sizlərə ugurlar arzulayıram. Sözümü Nəbi Qaracayevin şeiri ilə tamamlayıram:

Çalış sən xalqınla, elinlə bir ol,
Gördüyün işinlə desinlər pir ol,
Elinlə nəfəs al, onunla var ol
Yaşa yüzdən ötə, Nəbi qardaşım.

Qara MƏMMƏDOV
Marneuli rayonu, Sadaxlı kəndi

# GÜRCÜSTAN VƏTƏNDAŞLARI XARİCİ PASPORTU GÜZƏŞTLƏ ALA BİLƏCƏKLƏR




Ədliyyə nazirliyinin dövlət xidmətinin inkişafı agentliyinin məlumatına görə, Gürcüstan vətəndaşları xarici pasportu sentyabrın 21-dən oktyabrın 21-dək 70 lariyə güzəştlə alacaqlar.

Hazırda Gürcüstan xarici pasportunun dəyəri 100 laridir. Onu ərizə verdikdən sonra on gün ərzində verirlər.

Agentliyin mətbuat xidmətinin məlumatında bildirilir : "Birinci dəfədir ki, xarici pasporta belə bir aksiya tətbiq olunur və bu qiymətə verilir". Ədliyyə evlərində, dövlət xidmətinin inkişafı agentliyinin ərazi xidmətlərində, ictimai mərkəzlərdə və ekspres ictimai mərkəzlərdə pasport almaq mümkündür. Aksiyadan 18 yaşına çatmış hər bir Gürcüstan vətəndaşı istifadə edə bilər. Pasport üçün biometrik fotoşəklin qiyməti 3 laridir.

Pasportu tez, məsələn, həmin gün almaq istəyənlər 70 laridən əlavə 105 lari də ödəməlidirlər. Pasport iki günə 90 lari, üç günə 50 lari, beş günə 20 lari əlavə ödəməklə veriləcək.

Məcburi köçkünlər, məhdud imkanlı şəxslər, həddi-buluğa çatmamışlar üçün xarici pasportun dəyəri 50 laridir.

İkinci dünya müharibəsinin iştirakçıları və ərazi bütövlüyü, azadlıq və müstəqillik uğrunda gedən hərbi əməliyyatlar zamanı şikəst olmuş Gürcüstan vətəndaşları xarici pasportu pulsuz alacaqlar. Ölkə Konstitusiyasına uyğun olaraq, Gürcüstan prezidentinin təşəbbüsü ilə Gürcüstan vətəndaşlığı almış əcnəbilər də xarici pasportu pulsuz ala biləcəklər

# GÜRCÜSTANDA 2017-Cİ İLDƏN PENSİYANIN YIĞIM SİSTEMİ FƏALİYYƏT GÖSTƏRƏCƏK

Gürcüstanda 2017-ci ildən pensiyanın yığım sistemi fəaliyyətə başlayacaq.

Yenilikdən şəxsi təşəbbüsü ilə Gürcüstanın bütün işləyən vətəndaşları istifadə edə biləcək. Pensiya fonduna aylıq ödəniş əmək haqqının 6%-ni təşkil edəcək və bundan vergi tutulmayacaq. Bunu hərəyə 2% olmaqla işçi, işə götürən və dövlət ödəyəcək. Yığım sisteminə toplanmış məbləğ iqtisadiyyata qoyulacaq və ona gəlir hesablanacaq. Pensiyaya çıxarkən Gürcüstan vətəndaşı bu məbləği və hesablanmış gəliri ala biləcək. Ödənişi istisna halları çıxmaqla vaxtından əvvəl almaq mümkün olmayacaq.

Pensiyanın yığım sistemindən real effekt götürmək üçün ən azı 20 il pul toplanmalıdır. Lakin pensiya yaşına 5-6 il qalmış digər vətəndaşlar da qoşula biləcək. Bunun üçün pensiyaya çıxarkən, onların bütün yığılmış pulları ödəmək imkanı olacaq. Çünki məbləğ o qədər



də böyük olmayacaq.

Gürcüstan hökuməti gələcəkdə işləyən, lakin rəsmi maaş almayan vətəndaşlar üçün də xüsusi paket hazırlamağı nəzərdə tutur.

Əhalinin son siyahıya alınmasına görə Gürcüstanda 3,7 milyon adam yaşayır. Onların da 20%-i pensiyaçıdır. 2050-ci ildə isə bu göstəricinin 25%-ə yüksəlməsi gözlənilir.

Afayət AFİQ



# DÜŞMƏN LİBASINDA BAŞ VERƏN SAVAŞ

**Günümüzün çox hissəsini nələrdənsə narazı olmaqla keçiririk. Bu yaxşı haldır, hər şey bir yana süstləşib, mamırlanmamağımızın işarəsidir. Mübarizə aparmaq, etiraz edə bilmək həyatda qalmağın ilkin şərtlərindəndir. Bizlər də, az-çox bu şərtə əməl edərək, yaşam uğrunda vuruşuruq. Adını çəkdiyimiz vuruşma zamanı isə təbii olaraq, dost və düşmən, rəqib və tərəfdaş qazanırıq. Bütün sadaladıqlarımızın ardı olaraq, bizim mübarizənin ayrılmaz parçalarından biri də mübahisə etməkdir. Mübahisə rəylərin, mövqelərin toqquşmasıdır. Qeyd etmək yerinə düşər ki, mübahisəmiz bəzən müdafiə, lakin çox zaman hücum xarakteri daşıyır. Söz savaşından qalib ayrılmaq üçün əlimizdən gələn hər şeyi edirik. Buna görə də çox zaman, fikir toqquşması insanların toqquşmasını da bərabərində gətirir.**

Məşhur filosof Sokrat mübahisə və dialoq zamanı söhbəti öz məcrasına doğru aparmağı bacaran bir dahi kimi öz dövründə də məşhur idi, elə indi də məşhurdur. Onun bu məharəti bir çoxlarını heyran qoyurdu. Bu qabiliyyətin sirri isə bircə vasitədə gizlənirdi. O, müsahibinin fikrini təkzib etmir, tərslik göstərmir, incimirdi.

Bəlkə də bu üsul Sokratın Sokrat olmasında ən böyük rol oynamışdı. Öz fikrini müdafiə etməyi bacarıb, öz həqiqətlərini sonuna qədər isbat etməyə çalışıb. Lakin indiki insandan fərqli olaraq fərqli fikirlərə düşmən kimi yanaşmayıb. O, öz həqiqətini, başqasının həqiqətinə palçıq atmadan təbliğ etdiyi üçün, həqiqətləri də onu əsrlər boyu qoruyub, filosof edib. Bir də, filosof olmaq iddiasının olmaması, adı çəkilən şəxsin yolundakı yaşıl işıqlardan biri olub. Beləliklə, həm adı, həm də demək istədikləri zaman, məkan sərhəddi tanımadan bizə qədər çata bilib.

Bizim yanlışımız çevrilməmizdədir. Zaman keçdikcə rəqibimizin, düşmənimizin cildinə bürünürük. Zaman keçdikcə biz müdafiə etdiyimiz dəyərlərdən arınıb, inkar etdiyimiz, qəbul etməyə razı olmadığımız fikirlərlə doluruq. Sual yarana bilər – necə? Çox sadə... Qalibiyyət uğrunda savaşdan məğlub ayrılmağımızın səbəbi əslində çox bəsitdir. Uğrunda savaşdığımız gerçəkləri biz düşməni məhv etdiyimiz zaman məhv edirik. Bizdə hər kəs qınadığı dona bürünür. Məsələn ateist özü də fərqində olmadan etdiyi çıxışları və sərgilədiyi davranışları ilə, dindarda tənqid etdiyi xüsusiyyətlərlə dolub-daşır və ya əksinə. Zülmü zalımca qınadığımız zaman biz də zalımlaşırıq. Cahilliyi elə üsullarla tənqid edirik ki, bu səfər də aqilin cahilliyi kimi dəhşətli bir səhnə ilə qarşı qarşıya qalırıq. Yəni, savadsızın savadsız olduğu gün kimi aydındır, həyatı və ya gerçəkləri dərk etməməsi təbiidir. Bəs, ziyası ilə aləmi işıqlandırmalı olanın savadsızlığı qarşısında nə deyəsən? Ya da kor savadı olmasa, daha yaxşıdır. Bu, düşməni öz silahıyla vurmaq, ya onun üsulları ilə savaşmaq prinsipinə formaca bənzəsə də, mənaca tamamilə fərqlidir. Biri şüurlu, digəri isə şüursuz baş verir.

Demirəm ki, yığışaq hamımız Sokrat olaq, yox, əstəğvürullah, tövbə. Belə bir şey istəsək də, olan deyil. Zira hər oxuyanın Molla Pənah olmayacağı da hər birimizə yaxşı bəllidir. Ancaq, görünən dağa nə bələdçi, zaman, məkan, ya da təbiət bizi deformasiyaya uğradır. Bunları şərti olaraq dedim, istəsək başqa suçlular da tapa bilərik. Xoşbəxt ola bilməməmizə səbəb kimi, yüzlərlə şey-zad sadalaya bilərik. Bu həmin bayaq adını çəkdiyim mitilinə döşəyib, sonda ona bənzədiklərimizdir. Sevdiklərimizə bənzəsək heç dərd-tasa olmazdı, lakin biz sırf sevmədiyimiz kəslərə və şeylərə bənzəyirik. Qara yeli sevmədiyimiz halda, çox zaman qara yel adından da çıxış edə bilirik. Deməli çevrilirik. Ya da yoluxuruq. Onda belə çıxır ki, biz qorxduğumuz və ya potensial təhlükə kimi gördüyümüz şeyləri tənqid edirik. Onları özümüzdən güclü gördüyümüz üçün məhv olması uğrunda çalışırıq. Onların həqiqətən güclü olmaları isə, bizi yoluxdurmalarından bəlli olur.

**Beləliklə də, yarışa məğlub başlayırıq. Sonunu isə təxmin etmək heç də çətin deyil. Deməli, istənilən savaşda, ən azından günümüz şərtlərindəki mədəni-sosial savaşlarda qələbə qazanmaq üçün şüarın məğlub etmək yox, qalib gəlmək olmalıdır. Bu zaman həqiqətən mədəni qələbədən, məqsədə çatmaqdan söhbət açmaq olar.**



Cambul
MƏMMƏDLİ
cmemmedli@mail.ru

## QURUNUN ODUNA YANAN YAŞ

**Bildiyiniz kimi, İslamda beş şərt vardır ki, onlardan biri də əgər qismət olarsa ömründə bir dəfə, Müqəddəs Məkkə şəhərinə gedib, Kəbəni, Həcci ziyarət etməkdir. Məkkə şəhərinin İslam aləmində yeri və rolu böyükdür: əziz peyğəmbərimiz məhz bu şəhərdə doğulub, boya-başa çatmış, Allahın sonuncu dinini burada təbliğ etmiş, qədim bütpərəst ziyarətgahı olan Kəbəni bütpərəstlərdən təmizləyərək, İslamın ən böyük müqəddəs ocağı etmiş, dünya müsəlmanlarının istinad nöqtəsinə çevirmişdir.**

Ərəbcə "mərkəz" mənasını verən "Məkkə" şəhəri çox qədim tarixə malikdir. Məkkə ilk əvvəl susuz səhra olmuşdur. Sonradan İbrahim peyğəmbərin həyat yoldaşı Həcər xanım oğlu İsmayıl peyğəmbər ilə birlikdə bu susuz səhraya sürgün edilmişdir. Həcər xanım Allaha dua edərək ona su verilməsini rica etmiş, Allah Təala da onun duasını qəbul edib, Zəm-zəm adlanan bulağı səhrada yoxdan var etmişdir. Məkkəyə sonradan başqa ərəb qəbilələri də bir ucdan axışmağa başlamış, Allah Təala tərəfindən buraya sonuncu elçi olaraq Məhəmməd Əleyhissalam göndərilmiş və İslam dininin zəfərindən sonra bu şəhər Müsəlman dünyasının mənəvi paytaxtı olmuşdur. Məkkəni daha çox məşhur edən orada yerləşən Kəbə evidir. Qurani Kərimdə Allah Təlanın evi adlandırılan Kəbənin ilk dəfə İbrahim peyğəmbər tərəfindən tikildiyi bildirilir. Bu gün bütün dünyada namaz qılan və dua edən müsəlmanlar üzlərini məhz Qibləyə, yəni Məkkə şəhərində yerləşən Kəbə evinə tərəf tutarlar. Hər il dünyanın müxtəlif dövlətlərində yaşayan möminlər (bir çox hallarda mömin donuna bürünmüşlər də) həmin müqəddəs məkana axışırlar. Həmişəki kimi, bu il də 2 milyonun üzərində zəvvar dünyanın müxtəlif ölkələrindən bura axın etmişdir. Onların ziyarəti zamanı izdiham nəticəsində 1000 nəfərin üzərində zəvvar dünyasını dəyişib və 1500 nəfərdən çoxu da bədən xəsarəti almışdır. Ərəb mediası faciəyə səbəb kimi ölkə kralının oğlunu göstərir. Belə ki, vəliəhd Məhəmməd bin Salmanın korteji keçdiyindən zəvvarların yolu bağlanıb və zəvvarlar da məcburiyyətdən əks yolla hərəkət etməyə başlayıblar. Elə bu zaman insan kütləsinin çoxluğu yaranıb və qarşılıqlı hərəkət edən kütlələr arasında izdiham yaranıb, tələfat baş verib. Xatırladaq ki, sentyabrın 11-də (!) də (bu rəqəm və Obamanın hadisənin baş verməsinə 1-2 saat qalmış Facebook-da yaydığı şəkillər, kran məsələsi müəmmalı görünmür ki?) kranın aşması nəticəsində 117 nəfər zəvvar Haqq dünyasına qovuşmuşdu. Ərəb mediasından fərqli olaraq, bu faciələrin baş vermə səbəbini bəndəniz başqa məsələlərdə görür və zənnimcə, möhtərəm Oxucu mənimlə razılaşacaqdır. Fikrimcə, Həccə o kəs gedə bilər, ilk şərt olaraq, halal zəhmətlə pul qazanmış olsun, qohum-əqrəbası, qonum-qonşusu, eli-obası, dindaşları... ehtiyac içində qıvrılmasın. Daha yox ki, iri bir vəzifədə oturub, rəsmi və qeyri-rəsmi yollarla qazandığı vəsaitin hesabına 27 dəfə "Hacı" titulu qazansın! Tutaq ki, bizlər əfəlik, bu cür gözdən pərdə asanların "hacılıqlarını" yedik, sinirdik. Ey şarlatanlar, mömin insanların qanına niyə bais olursunuz?! Axı, başa düşmürsünüz ki, o Müqəddəs torpağa sizin kimi yaramazların murdar ayağının basılmasına görə Yaradan xəbərdarlıq edir, "qurunun oduna yaşı da yandırır"? Heç kəsə sirr deyil ki, bütün aclıqlar, iqtisadi böhranlar, insanların sosial problemlərinin dəhşətlisi də, ən çox İslam ölkələrində yaşanmaqdadır. Maşallah, peyğəmbərimizin – "müsəlman müsəlmanın qardaşıdır" – tapşırığına incəliklərinə qədər "əməl olunur".

**Görünür iki milyonun üzərində olan zəvvarlar iqtisadi cəhətdən Avropanın və dünyanın problemləri az olan dövlətlərindən gedirlər... Nə isə, Uca Tanrım bütün möminlərin ziyarətini də, dualarını da qəbul etsin!**

## QURBAN BAYRAMININ DAXİLİ GÖZƏLLİKLƏRİ HAQQINDA BİR NEÇƏ SÖZ

*Bu ilki qurban bayramı da gəldi, keçdi. Qurbanlıqlar kəsildi, ətlər paylandı, manqallar qalandı. Kimisi el-oba hara, mən də ora düşüncəsi ilə, kimisi evimdə ət olsun düşüncəsi ilə, kimisi də "Adəmoğlu qurban kəsmə günündə Allah qatında qan axıtmaqdan daha sevimli bir əməl işləməmişdir. O qurban, qiyamət günü buynuzları, tükləri və dırnaqlarıyla gələcəkdir. Qurbanın qanı yerə düşməzdən əvvəl Allah qatında dərhal qəbul olunar. Bu səbəblə kəsdiyiniz qurbanlardan ötəri sıxıntı çəkməyin, könülünüz xoş olsun" Hədisi şərifinə cani-dildən uyaraq, qurbanını kəsdi. Ayəti kərimədə isə "Kəsilən qurbanların nə əti, nə də qanı Allaha çatar. Allaha çatan sizin təqvanızdır" buyurulur. Burdan da göründüyü kimi qurban bir səmimiyyət və təslimiyyət simvoludur. Onu isə ən gözəlindən etmək lazımdır.*

Qurbanın tarixçəsinə nəzər saldıqda ta İbrahim peyğəmbərdən bu yana gəldiyini görürük. Həzrəti İbrahim oğlu olduğu təqdirdə onu qurban edəcəyini əhd edir. Zaman keçir, İbrahim əleyhissalamın İsmayıl adlı oğlu dünyaya gəlir. Müəyyən bir vaxt keçdikdən sonra həzrəti İbrahimə nida gəlir ki, əhdini yerinə yetirsin. O, isə heç çəkinmədən bu əhdə vəfa edir. Ancaq bıçaq İsmayılın boğazını kəsmir. Uca Allah Cəbrail vasitəsiylə bir qoç göndərərək Həzrəti İbrahimə onu kəsməsini əmr edir. İslamda da həzrəti İbrahimin yolu davam etdirilərək, ildə bir dəfə qurban kəsilir.

Bəzi insanlar Peyğəmbərimiz (s.ə.s)-ə yanına gələrək: "Ya Rəsulullah, biz namaz qılmasaq olmazmı?", – deyərək, sanki bazarlıq etmək istəyirdilər . Halbuki imanda, fərz və haramlarda bazarlıq olmaz. Təslimiyyət də budur; şərtsiz, bazarlıqsız və könüldən itaət etməkdir. Allah Rəsulu (s.ə.s) buyurdu ki: "Rükusu olmayan bir dində xeyir yoxdur, namazı olmayan bir dində xeyir yoxdur. Rəsulullah belə bir şeyin mümkün olmadığını, imanın təslimiyyət olduğunu, təslimiyyətin də şərtsiz, bazarlıqsız və könüldən itaət olduğunu izah etmək istəyirdi.

Həqiqi iman, insana təslimiyyət duyğusu verəcək. Həqiqi imana çatmamış insanda təslimiyyət duyğusu reallaşmaz. İnsanda təslimiyyət varsa "iman vardır". Hz. İbrahim (ə.s.) və İsmayıl (ə.s.) də olduğu kimi. Əlbəttə ki, övlad sevgisi Allahdandır, fitridir. Lakin vəzifələri icra etməyə mane olan səviyyədə övlad və ya yoldaş sevgisi Allahdan deyil, nəfsdəndir. Allah bunu normala endirmək istəyirdi. Qurban bayramında qoyunlarınızı kəsərkən, İbrahimi xatırlayacaqsınız. İsmayılı kəsmək o deməkdir ki, sevdiyin şeyləri Rəbbin uğrunda fəda etməyin, Rəbbin uğrunda şəhvətlərini kəsməyin, iradəni buraxıb Allahın iradəsinə təslim olmağın deməkdir. Bu şəkildə məsələyə baxmayanlar həqiqi olaraq qurban kəsmiş sayılmazlar. Hər kəsin bir İsmayılı vardır. Kiminin İsmayılı yoldaşı, kiminin İsmayılı malı və ya mövqeyi, yəni dünyada ən çox sevdiyi şeydir. Qurban kəsərkən hər kəs öz İsmayılını fəda etmək niyyətiylə kəsməlidir.

Qurbanın mənası ərəbcə yaxınlaşmaq deməkdir. Taxararıb sözü də eyni kökdən gəlir, Allaha yaxın olmaq deməkdir. İnsan bir qoyun kəsərək, necə Allaha yaxınlaşmış ola bilər? Əslində Allah (c. c.) burada bizə bu mesajı vermək istəyirdi; İbrahim (ə.s.) İsmayılını kəsməyi gözə ala bildiyi üçün Allaha yaxınlaşmışdı, qoyunu kəsdiyi üçün deyil! Qoyunu hər kəs kəsə bilər, amma sevdiklərini lazım olsa Allah yolunda buraxa biləcək olanlar, bax, onlar həqiqətən qurban kəsmiş olanlardır.

Həccə gedənlər və qurban kəsənlər bunları xatırlamalı, İbrahim (a.s.)ı və İsmayıl (a.s.)ı xatırlamalı, Həcər anamızı xatırlamalı, belə bir təslimiyyəti xatırlamalıdırlar…

Quran yalnız şərtləri yerinə yetirənləri deyil, təslimiyyət göstərə bilənləri təriflə izah edər. Seçilmiş olanlar da belə insanlardır. Seçilənlərdən olmaq, ya da onlara bənzəmək istəyənlər, Allahın özlərinə verdiyi vəzifələrə və özləri üçün təqdir etdiyi qədər təslimiyyət göstərsinlər. Təslimiyyət yüksəlmənin ən kəsə yoludur. İllərcə namaz qılaraq, oruc tutaraq çıxılmayacaq mövqelərə, təslimiyyətlə bəzən bir neçə saniyədə çıxılar. Təslimiyyət uzun yolu qısaldar. Allaha təslimiyyət göstərə bilməyənlər nəfslərinə, şeytana və ya insanlara təslimiyyət göstərərlər və insanlıq şərəflərini itirərlər.

Hacı BƏKİROĞLU

## MOSKVADA MƏRKƏZİ MƏSCİDİN TƏNTƏNƏLİ AÇILIŞI OLUB



Sentyabrın 23-də Rusiya paytaxtında 10 min nəfərlik Mərkəzi məscidin təntənəli açılışı olub.

Mərasimdə Rusiya prezidenti Vladimir Putin, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, Fələstin prezidenti Mahmud Abbas, habelə bir sıra müsəlman ölkələrinin nümayəndələri, səfirlər və Rusiyada fəaliyyət göstərən digər dini konfesiyaların rəhbər şəxsləri iştirak ediblər.

Mərasim "Fatihə" surəsinin oxunması ilə başlayıb.

Sonra Rusiya Müftilər Şurasının sədri Ravil Qaynutdin çıxış edib. Məscidin inşa edilməsində V. Putin və Moskva meri Sergey Sobyaninin xüsusi xidmətləri olduğunu söyləyən baş müfti dağıstanlı iş adamı Süleyman Kərimova göstərdiyi maddi dəstəyə görə minnətdarlığını bildirib.

Fələstin prezidenti Mahmud Abbas isə çıxışı zamanı dünya müsəlmanları üçün xüsusi önəmi olan Əl-Aksa məscidinə olan hücumlardan danışıb.

Öz növbəsində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bu gün Moskvada Mərkəzi məscidin açılışında iştirak etməkdən qürur duyduğunu söyləyib.

V. Putin isə çıxışında məscid açılışını Rusiya müsəlmanları üçün böyük tarixi hadisə adlandırıb.

Qeyd edək ki, 19 min kvadratmetr sahəyə malik 3 mərtəbədən və iki minarədən ibarət olan məscid Avropanın ən böyük məscidlərindən biridir. Məscidin hündürlüyü 46 metrdir. Məscidin minarələrində quraşdırılmış eyvanlardan bütün şəhəri seyr etmək mümkündür. Məscidin tikintisinə 170 milyon dollar xərclənib.

## KOSALI MƏKTƏBİNDƏ EL ŞAİRİ ZAHİD ƏLƏMPAŞALININ 80 İLLİK YUBİLEYİ KEÇİRİLİB



Sentyabrın 16-da Qardabani rayonunun Kosalı ictimai məktəbində təntənəli şəkildə el ağsaqqalı, şifahi xalq poeziyasının əksər janrlarında bir-birindən oxunaqlı nümunələr yaratmış Zahid Ələmpaşalının 80 illik yubileyi keçirilib. Kosalı məktəbinin akt zalında keçirilən tədbir Gürcüstanın və Azərbaycanın dövlət himnlərinin səsləndirilməsi ilə açılmışdır. Bundan sonra məktəbin direktoru Mahmud Mehdiyev qonaqları salamlayaraq, belə bir tədbirin Kosalı məktəbində keçirilməsinin məktəbin pedaqoji kollektivi, eləcə də şagirdləri üçün böyük önəm daşıdığını vurğulamış, yubilyarı 80 illiyi münasibəti ilə təbrik etmişdir.

Yubley tədbirinin aparıcısı Kosalı məktəbinin müəllimi və Qardabanidəki "Dostluq evi"nin əməkdaşı Qəzənfər Qulamov Zahid Ələmpaşalının həyat və yaradıcılığı barədə mərasim iştirakçılarına ətraflı məlumat vermişdir.

Sonra tədbir iştirakçıları el şairi haqqında ürək sözlərini söyləmiş, aşıqlar, musiqiçilər mərasimi musiqi parçaları ilə şənləndirmişlər.

Rayon rəhbərliyindən Ülfət Ağamalıyev, Dato Asatiani, Rəfi Orucov çıxış edərək, yubilyarı təbrik etmişlər. Rayon "Dostluq evi"nin rəhbəri Şəmistan Vəliyev də Zahid Ələmpaşalı barədə ürək sözlərini dilə gətirmiş, onu təbrik edərək, yaradıcılıq uğurları arzulamışdır. Kosalı kəndinin icra nümayəndəsi Xançoban Hacıməmmədov öz çıxışında yubilyarın həm də sayılıb-seçilən bir el ağsaqqalı olmasını vurğulamışdır.

El şairinin yubileyində iştirak etmək üçün bilavasitə uzaq yolları yaxın edib mərasimə qatılan saz-söz adamlarının çıxışları da yaddaqalan olmuşdur. Gürcüstan aşıqlar birliyinin rəhbəri şair Osman Əhmədoğlunun çıxışı toplaşanları riqqətə gətirmişdir. "Borçalı" ictimai cəmiyyətinin idarə heyətinin üzvü Elbəyi Cəlaloğlu çıxışında şairə yaradıcılıq uğurları arzulamış və ona təmsil etdiyi təşkilat adından xatirə hədiyyəsi təqdim etmişdir. Ağstafa rayonundan gəlmiş söz xiridarı Tapdıq Muğanlı, yazıçı Mirzə Məmmədoğlu da yubilyar barədə xoş fikirlər səsləndirmişlər. "Salam" xeyriyyə cəmiyyətinin rəhbəri Maya Rəcəbova ağsaqqal şairi təbrik edərək, ona cəmiyyətin adından hədiyyə təqdim etmişdir. Kosalı məktəbinin müəllimi Dərsəxan Mahmudov yubilyarı təbrik edərək, haqqında xoş sözlər söyləmişdir. Şair Vaqif Kəpənəkçinin çıxışı da el şairinin gözəl məziyyətlərini toplaşanlara təqdim etmək baxımından maraq doğurmuşdur.

Yubiley tədbirinə qatılan aşıq Maksim Muğanlının, aşıq Elşad Əfəndiyevin və aşıq Məsim Rəcəbovun çıxışları mərasim iştirakçılarına xoş anlar yaşatmışdır.

Zahid Ələmpaşalının 80 illik yubiley tədbirində Kosalı məktəbinin XII sinif şagirdləri Esmira Zeynalova, Aytac Ləzgiyeva, Şura Allahverdiyeva və Fərid İskəndərovun təqdim etdikləri şairin şeirlərindən ibarət kompozisiya rəğbətlə qarşılanmış, dəfələrlə alqışlara səbəb olmuşdur.



Yubilyarın qızı Gülnarə xanım tədbirin təşkil olunmasında əməyi keçən hər bir kəsə, eləcə də mərasimdə iştirak edən qonaqlara atasının yaradıcılığına yüksək qiymət verdiklərinə görə minnətdarlığını bildirmişdir.

Sonda söz el şairinə verilmiş, o da öz növbəsində diqqət və qayğıya görə təşəkkür etmiş, şeirlərindən nümunələr səsləndirmişdir.

"Yeni Yol"

## ÜZEYİR HACIBƏYLİNİN XATİRƏSİ ABŞ KONQRESİNDƏ ANILIB



ABŞ Konqresinin Nümayəndələr Palatasının plenar iclasında Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin 130 illik yubileyi qeyd olunub. Bu münasibətlə konqresmen Paul Gosar çıxış edib.

Çıxışın nüsxəsi Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğuna təqdim olunub.

18 sentyabr tarixinin "Üzeyir Hacıbəyli Günü" kimi tanındığını bildirən konqresmen, bəstəkarın Azərbaycan klassik musiqi sənətinin, tarixi-mədəni irsinin formalaşmasındakı rolundan danışıb.

O, Ü. Hacıbəylinin həyat və yaradıcılığı, o cümlədən müsəlman dünyasında ilk opera və operettanın banisi olması haqqında məlumat verərək, dahi bəstəkarın ənənəvi Azərbaycan musiqisi və Avropa klassik operasının sintezi əsasında yeni bir musiqi janrı yaratdığını qeyd edib.

Konqresmen bildirib ki, Ü. Hacıbəylinin yaradıcılığı musiqi sahəsi ilə məhdudlaşmır, tarixi cəhətdən də böyük önəm kəsb edir. Konqresmen qeyd edib ki, savadsızlığın aradan qaldırılması və maarifçilik uğrunda mübarizə aparan Ü. Hacıbəylinin musiqiçi, müəllim və jurnalist kimi fəaliyyəti Azərbaycan sərhədlərini aşan yeni mədəniyyət hərəkatının yaranmasına təkan vermişdi.

Gosar Ü. Hacıbəylinin Azərbaycanın ilk himnini bəstələməsi barədə də məlumat verib.

Sonda konqresmen Ü. Hacıbəylinin Azərbaycan və dünya musiqi mədəniyyətinə verdiyi dəyərli töhfələrə görə dahi bəstəkarı bu gün anmaqdan şərəf duyduğunu bildirib.

Bu, Ü. Hacıbəylinin xatirəsinin ABŞ Konqresində anılması ilə bağlı ilk hadisədir.

## საქართველოში გაიმართა უზეირ ჰაჯიბეკოვის 130 იუბილისადმი მიძღვნილი ღონისძიებები

გასულ კვირას მსოფლიოში ცნობილი აზერბაიჯანელი კომპოზიტორისა და აღმოსავლეთში პირველი ოპერის ავტორის - უზეირ ჰაჯიბეკოვის 130 იუბილისადმი მიძღვნილი კონცერტები გაიმართა მსოფლიოს სხვადასხვა ქვეყნებში. საქართველოშიც, ცნობილი კომპოზიტორის იუბილესთან დაკავშირებით რამდენიმე კონცერტ- ღონისძიებები გაიმართა. საქართველოში კონცერტები მირზა ფათალი ახუნდოვის სახელობის თბილისის აზერბაიჯანული კულტურის მუზეუმის ორგანიზებითა და აზერბაიჯანის კულტურისა და ტურიზმის სამინისტროს მხარდაჭერით გაიმართა. უზეირ ჰაჯიბეკოვის 130 იუბილისადმი მიძღვნილი კონცერტებში მონაწილეობდა აბშერონის რაიონის ქალაქ ხირდალანის მუსიკალური სკოლის ორკესტრი. 22 სექტემბერს მარნეულის კულტურის სახლში, 23 სექტემბერს გარდაბნის კულტურის სახლში და 24 სექტემბერს ბოლნისის კულტურის სახლში ჩატარებულმა კონცერტებმა მაყურებლების დიდი ინტერესი მოიპოვა. საიუბილეო ღონისძიებებს, ქვემო ქართლის რწმუნებულ- გუბერნატორის მოადგილე ნუგზარ სალია, ადგილობრივი ხელისუფლების წარმომადგენლები, საჯარო სკოლის პედაგოგები, მოსწავლეები და სხვა მოწვეული სტუმრები ესწრებოდნენ.

## BMT BAŞ ASSAMLEYASININ 70-Cİ SESSİYASI ÖZ İŞİNƏ BAŞLAYIB

BMT Baş Assamleyasının 70-ci yubiley sessiyası 2015-ci ilin sentyabrından 2016-cı ilin sentyabrınadək keçiriləcək.

Sentyabrın 25-dən 27-dək BMT Baş Assambleyası çərçivəsində İnkişafın sabitliyi məqsədilə keçirilən sammitdə 154 dövlət və hökumət başçısı və 30 nazir iştirak edib. Sentyabrın 28-dən oktyabrın 3-dək və 5-6 oktyabr tarixlərində Baş Assambleyanın siyasi debatlarında 144 dövlət və hökumət başçısının, 46 nazirin iştirakı nəzərdə tutulub.

Yubiley sessiyasının rəsmi açılışı sentyabrın 15-də olub. Qarşıdakı bir il ərzində Baş Assambleyanın iclaslarında 170 məsələnin müzakirə olunması planlaşdırılsa da, burada digər fövqaladə məsələlərin müzakirəsi də nəzərdə tutulur.

## GÜRCÜSTANDA 20 LARİ DƏYƏRİNDƏ GÜMÜŞ SİKKƏ BURAXILIB

Larinin 20 illik yubiley təntənələri münasibətilə Gürcüstan milli bankı 20 larilik gümüş sikkə buraxıb. Bu barədə Gürcüstan milli bankı məlumat yayıb.

Məlumata görə, nominal 20 larilik sikkə 925 əyyarlı gümüşdən 28,28 qram ağırlığında hazırlanıb. Sikkənin eskizinin müəllifi tərtibatçı rəssam Baça Malazoniyadır.

Sikkə Polşanın zərbxanasında (Mennica Polska) zərb olunmaqla 1500 ədəd buraxılıb. Sikkənin satış qiyməti 95 laridir. Sikkəni sentyabrın 26-dan Gürcüstan Milli Banknın kassa mərkəzində və Kvareli pul muzeyində, eləcə də Milli Bankın veb səhifəsində onlayın mağazada əldə etmək mümkündür.



## GÜRCÜSTANDA ÜZEYİR HACIBƏYOVUN 130 İLLİK YUBİLEYİ İLƏ BAĞLI TƏDBİRLƏR KEÇİRİLİB

Ötən həftə dünyaca məhşur Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın müəllifi Üzeyir Hacıbəyovun 130 illik yubileyi dünyanın bir çox ölkələrində təntənə ilə qeyd edilib. Ölməz bəstəkarın yubileyi ilə əlaqədar ölkəmizdə də bir sıra konsert-tədbirlər keçirilib. Gürcüstanda bu tədbirlər Mirzə Fətəli Axundov adına Tbilisi Azərbaycan mədəniyyət muzeyinin təşkilatçılığı ilə, Azərbaycan mədəniyyət və turizm nazirliyinin dəstəyi ilə həyata keçirilib. Üzeyir Hacıbəyovun 130 illik yubileyinə həsr olunmuş tədbirlərdə Abşeron rayonu Xırdalan şəhər Musiqi Məktəbinin orkestri iştirak edib. Sentyabrın 22-də Marneuli mədəniyyət evində, sentyabrın 23-də Qardabani mədəniyyət evində və sentyabrın 24-də Bolnisi mədəniyyət evində keçirilən konsert proqramları tədbir iştirakçılarının böyük marağına səbəb olub. Tədbirlərdə Kvemo Kartli qubernatorunun müavini Nuqzar Salia, yerli hökumət nümayəndələri, orta məktəb müəllimləri, şagirdlər, tələbələr və dəvət olunmuş başqa qonaqlar iştirak ediblər.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.
# Yeni YOL
30 sentyabr 2015-ci il
№008 (08)
yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## GÜRCÜ JURNALLARI “ELZEVİR” BAZASINA DAXİL EDİLİB




Gürcüstan təhsil və elm nazirliyindən bildirilib ki, Gürcüstanda nəşr olunan iki jurnal Gürcüstan elm tarixində ilk dəfə “Elzevir” kimi nəhəng beynəlxalq bazaya daxil edilib. Rəsmi daxil etmə 2016-cı ilin martında baş tutacaq.

Gürcüstan tərəfi və “Elzevir” kompaniyası müvafiq memorandumu sentyabrın 18-də imzalayıblar. Memorandumun imzalanması mərasimində nazirliyin başçısı Tamar Sanikidze, İ.Cavaxişvili adına TDU-nun və Gürcüstan Aqrar Universitetinin rektorları, eləcə də elmi jurnalların redaktorları iştirak ediblər.

Sanikidzenin sözlərinə görə, “Andria Razmadze institutunun riyaziyyat məsələləri” və “Aqrar elmlər salnaməsi” jurnallarını “Elzever” nümayəndələri yüksək beynəlxalq standartlara uyğun gəldikləri üçün seçiblər.

Nazir bu bazaya kartvelogiya mövzusunda jurnalın da daxil edilməsini arzuladığını dilə gətirib.

## GÜRCÜ REJİSSORUN FİLMİ İSPANİYADA 4 PRİZ QAZANIB

Svanetinin yüksək dağlıq bölgəsinin sərt ənənələri haqqında qısametrajlı sənədli film ən yaxşı rejissor işi, ssenari, operator işi və ən yaxşı kostyum dizaynı nominasiyalarında mükafat alıb. Hazırda rejissor “Dinola”nın tammetrajlı versiyası üzərində işləyir, bu film “Dede” adlanacaq ki, bu da svan dilində “ana” deməkdir.

Rejissor belə deyib ki, film qismən svan və gürcü dillərində olacaq. Filmin çəkilişləri 2016-cı ilin fevralında başa çatacaq. Bundan sonra rejissor Mariam Xaçvani filmi Kann kino festivalına təqdim etmək niyyətindədir.

2013-cü ilin martında çəkilən qısametrajlı “Dinola” artıq Rumıniya, Norveç, Fransa, İtaliya, Makedoniya, Tacikistan və Gürcüstan kino festivallarında uğur qazanıb. “Dinola” Mariam Xaçvaninin nənəsinin taleyinə əsaslanan real hadisələr əsasında çəkilib. Süjetə görə, yenicə dul qalmış qadını ərə getməyə və uşağını ərinin valideynlərinin yanında qoyaraq, yeni həyat yoldaşı ilə yeni həyata başlamağa vadar edirlər.




Mariam Xaçvani Svanetinin Uşquli kəndindəndir. O, 2008-ci ildə Ş. Rustaveli adına Dövlət Kino və Teatr universitetində telekinorejissorluq fakültəsini bitirib. Xaçvani bir neçə qısametrajlı və sənədli filmin müəllifidir. 2012-ci ildə onun “Dede” kinossenarisi Gürcüstan “Qala” ədəbi mükafatına layiq görülüb.

## XINA BİR ÇOX XƏSTƏLİKLƏRİ MÜALİCƏ EDİR



Baş ağrıları zamanı xınanı suda həll edib saçlara və baş dərisinə çəkin, plyonka və dəsmalla bağlayıb uzanın. 30 dəqiqədən sonra başınızı yuyun.

Büzücü və iltihabəleyhinə təsirə malik olan xına müxtəlif ağız boşluğu və damaq iltihabları zamanı istifadə olunur. 1 çay qaşığı xına 1 stəkan isti suda həll olunur, yarım saat sonra yaxşı süzülüb qarqara kimi istifadə olunur.

Xına göbələk infeksiyası ilə mübarizə aparır. Ayaqlarınızda göbələk varsa, xınanı suda həll edib ayaqlara çəkin. Pis qoxuya səbəb olan mikrobları, göbələkləri öldürür, dərini qurudur.

Bel, oynaq ağrıları zamanı xınanı qatı xama kimi alınanadək su və zeytun yağı ilə yarıbayarı qarışdırıb, 10 dəqiqə saxlayın, pambıq əskiyə çəkin və ağrıyan hissəyə qoyub 30 dəqiqədən sonra götürün.

Rəngli xına allergiyaya səbəb ola bilər, istifadə etməzdən əvvəl xınanı dərinin kiçik hissəsinə çəkib, reaksiyanın olub-olmamasına fikir verin.

# YENİ NƏŞRLƏR

## “QABAL – BURA VƏTƏNDİR” KİTABI ÇAPDAN ÇIXIB




Tbilisinin “Merediani” nəşriyyatında istedadlı şair-publisist Fərman Qulamoğlunun “Qabal – bura vətəndir” kitabı çap olunub. Kitab pedaqoji elmləri doktoru, professor Alı Musayev və tarix elmlər doktoru Oleq Meradzenin elmi rəhbərliyi, Ələddin Qarabağlının redaktorluğu ilə işıq üzü görüb.

Kitab Qabal bölgəsinin dününə, bu gününə və sabahına ayna tutmaq baxımından əvəzsiz bir qaynaq, dəyərli bir məxəz roluna malikdir. Burada Qabal eli barədə müxtəlif səpkili materiallar təqdim edilir ki, həmin materiallar vasitəsilə oxucu bir elin böyük və təkrarsız obrazını gözləri qarşısında canlandıra bilir.

418 səhifəlik kitab Fərman Qulamoğlunun yuxusuz gecələrinin, gərgin əməyinin və ən ümdəsi isə Vətən sevgisinin, millətə bağlılığının bəlgəsi kimi qarşımızdadır. Topluda Qabal bölgəsinin qədim-qayım oymaqlarının – Qabal, Gəncəli, Uzuntala və Qaracaların dünəni, bu günü və sabahı vəhdətdə təqdim olunur. Ümumilikdə kitab dörd bölmədən ibarətdir. Müəllif birinci bölmədə bölgənin tarixindən yarpaqları təqdim edir. Ikinci bölmədə böyük bir elin yaddaşında yaşayan şifahi xalq ədəbiyyatı nümunələri – atalar sözü və məsəllər, oxşamalar, alqış və qarğışlar, bayatılar, lətifələr, nağıllar və s. sıra ilə oxucunun diqqətinə çatdırılır. Kitabın üçüncü hissəsində Qabal tərəflərdə yaranmış aşıq ədəbiyyatı nümunələrindən seçmələr oxucuların ixtiyarına verilir. Dördüncü bölmə isə ədəbiyyatımızda öznəməxsusluğu ilə diqqəti çəkən qaballı şairlərin və yazıçıların əsərlərindən nümunələrlə yadda qalır.

## “UĞUR” DƏRGİSİNİN YENİ SAYI İŞIQ ÜZÜ GÖRÜB




“Uğur” dini, elmi, ictimai jurnalının növbəti – 43-cü sayı işıq üzü görüb. Nəşr ənənəsinə sadiq qalaraq, bu sayında da oxucularına maraqlı məqalələr təqdim edir. “Uğur” yeni sayında “Şəxsiyyətin inşası” mövzusunda fərqli baxış bucağından insan şəxsiyyətinin müxtəlif sahələrinə ayna tutmağa çalışır.

Dərginin bu sayında Hacı Bəkiroğlu, Nrlan Məmmədzadə və Elşən Rzayevin yazıları inanırıq ki, oxucuların marağına səbəb olacaq. Müşfiq Xəlilov və Lokman Helvacının məqalələri öz aktuallığı ilə fərqlənir.

“Uğur” bu sayında Türkiyə Diyanət İşləri Başqanlığının Xarici əlaqələr şöbəsinin rəhbəri prof. Halife Keskinlə müsahibəni də təqdim edir.

Əziz Sultanovun, Mübariz Əlioğlunun, Fuad Quliyevin məqalələri də oxucuların müzakirəsinə verilib.

Osman Nuri Topbaşın “Məhəbbətin ölçüsü fədakarlıqdır” adlı iri həcmli yazısı da jurnalın bu sayını bəzəyir.

Adəm Şahinin məqaləsində Yusif Balasaqunlunun “Qutadqu-Bilik” əsəri tədqiqata cəlb edilib. İbrahim Erolun yazısı isə böyük mütəfəkkir İbn Həldunun təhsil fəlsəfəsinə işıq tutur.

Jurnalın bu sayında Eldar Kərimov, Rövşən Əhmədov, Kamran Məmmədov, Məmməd Məmmədzadə, Saleh Şirinov, Firdovisi Həsənov, Müşfiq Xəlilov mövzu baxımından bir-birindən fərqlənən yazıları ilə oxucuların görüşünə gəlib.

“Uğur” şair Zərgər Musanın vəfatı ilə bağlı yazıya və onun xatirəsinə Rafiq Hümmətin həsr etdiyi şeirə, eləcə də Zərgər Musanın “Danışın”qoşmasına öz səhifələrində yer ayırıb.

Təsisçi:
“Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı”

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.